**UOT 008**
**https://doi.org/10.52094/2221-7584.2025.37.113**

**Namizər Yusubov Mövlud oğlu**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**magistrant**
**yusubovnamizr@gmail.com**

# AZƏRBAYCANDA AHILLARIN YAŞADIĞI SOSIAL-PSİXOLOJİ VƏ İQTİSADİ PROBLEMLƏRİN TƏHLİLİ VƏ ONLARIN HƏLL YOLLARI

**Xülasə**: Azərbaycanda əhalinin yaşlanması demoqrafik bir gerçəklikdir. Ahıllar cəmiyyətin vacib bir hissəsini təşkil etsələr də, onlar çox vaxt müxtəlif problemlərlə üzləşirlər. Bu problemlər arasında sosial təcrid, psixoloji gərginlik və iqtisadi çətinliklər ön plandadır. Məqalənin məqsədi bu problemləri dərindən təhlil etmək və onların həlli üçün konkret təkliflər təqdim etməkdir.

**Açar sözlər:** ahıl, problemlər, sosial-psixoloji problemlər, iqtisadi problemlər, həll yolları

## Giriş

Qocalıq məfhumuna müxtəlif yanaşmalar mövcuddur. "Ən geniş mənada qocalma hər bir insan həyatının inkşafında dəyişikliklərin davam etməsini ifadə edən prosesdir" [6]. Bu iqtisadi, ekoloji və mədəni amillərin hazırladığı nəticədir. Azərbaycanda əhalinin yaşlanması demoqrafik bir gerçəklikdir. Ahıllar cəmiyyətin vacib bir hissəsini təşkil etsələr də, onlar çox vaxt müxtəlif problemlərlə üzləşirlər. Bu problemlər arasında sosial təcrid, psixoloji gərginlik və iqtisadi çətinliklər ön plandadır. Məqalənin məqsədi bu problemləri dərindən təhlil etmək və onların həlli üçün konkret təkliflər təqdim etməkdir. Qocalıq məfhumuna müxtəlif yanaşmalar mövcuddur. Ən geniş mənada qocalma hər bir insan həyatının inkşafında dəyişikliklərin davam etməsini ifadə edən prosesdir. Bu iqtisadi, ekoloji və mədəni amillərin hazırladığı nəticədir. Qocalma prosesi daxilində fizyoloji və psixoloji dəyişiklikləri ehtiva edən və hər bir canlının həyatında olan xronoloji ardıcıllıqdır. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndinə uyğun olaraq, Azərbaycan Respublikasında çətin həyat şəraitində yaşayan şəxslərə sosial xidmət göstərilməsi sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edən və bu sahədə yaranan münasibətləri tənzimləyən

"Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununa əsasən yaşı 70-ə çatmış şəxs ahıl hesab olunur [6]. Qocalma ilə bərabər insanda hər hansısa bir hadisəyə qarşı reaksiya, qəbul etmə, ötürmə bacarıqları və yaradıcılıq azalmağa başlayır. Lakin yaşlılığın fizioloji və psixoloji nöqtədən dəqiq olaraq harda başladığını demək mümkünsüzdür. Hər bir insan orqanizmi yaşlanma prosesinə eyni reaksiyaları verməməkdədir. Təəssüf ki, bəzən ahıllara cəmiyyətin faydasız və lazımsız təbəqəsi, "artıq yük" kimi baxılan münasibətlərlə üzləşirik. Aramızda bu gün ömrünün qocalıq dövrünü yaşayan insanların bir zamanlar var qüvvələrini cəmiyyətin inkişafına sərf etdiklərini, xalqımızın maddi və mənəvi sərvətlərinin artırılması üçün çalışdıqlarını unudanlar da var. Bəllidir ki, gənclərin onlara hörmat və ehtiram hissi iləyanaşdıqlarını, hələ də gərəkli olduqlarını hiss edən ahıllar bu gün də bilik və bacarıqlarını gənc nəslə ötürə bilər, zəngin həyat təcrübələrini onunla bölüşə bilərlər. Amma həyat tərzinin köklü şəkildə dəyişildiyi bir dövrdə nəsillər arasında uçurum dərinləşir və nəticədə yaşlı nəslin cəmiyyətin həyatından müəyyən mənada təcrid olunması təhlükəsi ilə üzləşmiş oluruq. Yaşlı nəslin nümayəndələrinə hörmət va ehtiram xalqımızın milli-mənəvi dəyərlərinin ayrılmaz tərkib hissəsidir.

Dövlət Statistika Komitəsinin 2019-cu il üçün göstəricilərinə görə, yaşı 60-dan yuxarı olan vətəndaşlar əhalinin 11,5%-ni təşkil edir. Beynəlxalq proqnozlar 2050-ci ildə ölkə əhalisinin 25%-ə qədərinin yaşlılardan ibarət olacağını göstərir. Bu o deməkdir ki, Azərbaycanda yaşlı nəslə aid əhali qrupu getdikcə daha da önəmli təbəqəyə çevriləcək, onların ictimai həyata təsiri artacaqdır. Eyni zamanda, əhalinin yaşlanma meyli tədricən səhiyyə və sosial müdafiə xərclərinin artmasına səbəb olacaq və göstərilən məsələlər üzrə ictimai müzakirələr yol açacaqdır. Bununla əlaqədar yaşlıların vəziyyəti və onların rifahına bilavasitə təsir edən qayğı rejimi, yaşlılara qayğının norma və idealları, yaşlılara dair siyasətin müxtəlif aspektləri, habelə onlara münasibətdə stereotip və ayrıseçkilik məsələlərini tədqiq etmək xüsusi önəm daşıyır. 1970-1980-ci illərdə nəzəriyyəçilər, tədqiqatçılar və təcrübəçilər yaşlı insanlar və qocalma prosesi ilə getdikcə daha çox maraqlandılar. Alimlər qocalmanın bioloji, psixoloji və sosial aspektlərini daha yaxşı başa düşmək üçün bir çox əlaqəli fənlərdən istifadə etdilər. Nəticədə, gerontologiya kimi tanınan qocalmanın elmi və sistemli tədqiqi ilə bağlı məlumatların artması baş verdi. Bununla belə, həmin dövrdə yaşlı sosial işçilər yaşlı insanlarla işləmək üçün uyğun üsullar tapmaq məqsədilə müəyyən edilmiş sosial iş nəzəriyyələri ilə sınaqdan keçirdilər. İxtisaslaşdırılmış xidmətlərə ehtiyac müxtəlif xidmətlər və proqramları doğurdu. İyirmi birinci əsrə qədər genişlənmiş gerontoloji bilik

bazası metodoloji irəliləyişlərə və yaşlı insanlar üçün daha vacib və əhatəli xidmətlərə səbəb oldu [5]. Ümumi olaraq yaşlıların yaşadığı problemlər 4 hissədə quruplaşdırmaq olar:

***Sosial Problemlər:*** Yaşlıların yaşadığı sosial problemlərin başında ailə quruluşundakı dəyişikliklər, təklik, rol itkisi kimi faktorlar gəlməkdədir. Dəyişən həyat şərtləri ailə quruluşunu da dəyişdirməkdədir. Bir çox şəhərlərdə ailə həyatında yaşlılara yer verilmir. Bu vəziyyət, özlərini yalnız və işə yaramaz hissədən yaşlıların psixoloji istiqamətdə qalan ömürlərini çətinləşdirməkdədir.

Təqaüdçü olduqdan sonra, gəlirin azalması və yaşanan maddi problemlər, ictimai çətinlikləri yaradarkən, yaşlının məhdudlaşdırılmış olması və evdə baxım zərurətləri də özünü yük olaraq görməsinə səbəb olmaqdadır.

***İqtisadi Problemlər****:* Yaşlanan fərdin fiziki olaraq işə uyğun olmaması ya da təqaüdçü olması səbəbi ilə işindən ayrılması, gəlirin azalmasına səbəb olmaqdadır. Gəlirdəki azalma, yaşlının rol və statusunu, ailə əlaqələrini də mənfi təsir etməkdədir. Ailə içindəki nüfuzunu itirdiyini düşünən yaşlılar, daha tündxasiyyət olmaqdadır. Yaşlılıq dövründə qarşılaşılan xəstəliklər, səhiyyə xərcləri və mənzil kimi xərclərin yüksəkliyi, bir çox yaşlının şəhərlərdə yoxsulluq sərhədində yaşamasına səbəb olmaqdadır.

***Bioloji Problemlər****:* Bioloji problemlərin təməlində yaşlıların fiziki narahatlıqları özünü biruzə verir. Yaşlıların iş həyatından uzaqlaşmasına səbəb olan ən böyük faktor yaşadıqları səhiyyə problemləridir. Bu dövürdə yaşlılar üçün üzərində dayanılması lazım olan ən əhəmiyyətli ünsür yaşlılara səhiyyə xidmətlərinin və baxımının ən yaxşı şəkildə verilərək, yaşa bağlı fiziki itkiləri ən aşağı səviyyəyə gətirməkdir.

***Psixoloji Problemlər****:* Yaşlılıqdakı psixoloji problemlər keçmişə bağlılıq, yeniliklərə uyğunlaşa bilməməsi, alzheimer xəstəliyi, intihar, depressiya, yuxu pozuqluqları, ölüm qorxusu şəklində göstərilir. Yoldaşını və yaxınlarını itirən bir çox yaşlıda ölüm qorxusu artmaqdadır. Dəyişən fiziki görünüş, ortaya çıxan sağlamlıq problemləri yaşlıda psixoloji problemlərin ortaya çıxmasına səbəb olmaqdadır. Sosial rolların itkisi, pensiya, dul qalmaq, uşaqların evdən ayrılması, gedərək artan təklik duyğusu və maddi çətinliklər də yaşlının həyat keyfiyyətini salaraq, bəzi ruhi problemləri də bərabərin də getirməkdədir. Bu kimi vəziyyətlərdə ortaya çıxan problemlər üçün, vaxt itirmədən psixiloji kömək alınması olduqca əhəmiyyətlidir.

1. Sosial problemlərin həlli: Ahıllar üçün xüsusi sosial mərkəzlərin yaradılması; İctimai tədbirlər vasitəsilə ahılların sosial fəallığının

artırılması; Gənclərlə ahıllar arasında əlaqələri gücləndirən könüllü proqramların təşkili.

2. Psixoloji yardımın gücləndirilməsi: Ahıllar üçün psixoloji dəstək mərkəzlərinin yaradılması; Psixoloqların və sosial işçilərin sayının artırılması; Ahılların psixoloji sağlamlığının mütəmadi olaraq izlənməsi.

3. İqtisadi dəstək təklifləri: Pensiyaların artırılması və indeksləşdirilməsi; Ahıllar üçün iş imkanlarının yaradılması; Səhiyyə xidmətlərinə pulsuz və ya güzəştli çıxış təminatı.

4. Dövlət və cəmiyyətin rolu: Ahılların ehtiyaclarını qarşılamaq üçün dövlət proqramlarının gücləndirilməsi; Cəmiyyətin ahıllara qarşı münasibətinin dəyişdirilməsi üçün maarifləndirmə kampaniyalarının təşkili.

***Ahıllara qayğı sosial siyasətin prioritetlərindəndir***

Ahıl həyata rəng qatan, örnək olan insandır. Onların həyat təcrübəsindən bəhrələnmək nəsillər arasında körpü yaratmaq üçün çox zəruridir. Ahıllarla söhbət etmək, onların məsləhətlərini dinləmək varislik əlaqəsini bərpa etmək baxımından xüsusilə gənc nəslə fayda verir. Ölkəmizdə aparılan davamlı sosial islahatlar nəticəsində həssas əhali qruplarındanolan şəxslərin, o cümlədən tənha ahılların sosial müdafiəsi dəfələrlə gücləndirilib. Bu kateqoriyadan olan vətəndaşlarımızınhərtərəfli dövlət qayğısı ilə əhatə olunub. Ahıl şəxslər üçün sosial xidmət müəssisəsində son illərdə müasir tələblərə uyğun şərait yaradılıb. Beşmərtəbəli 170 yerlik əlavə korpus istifadəyə verilməklə çarpayı sayı çatdırılıb. Sakinlərin yaşayışı, keyfiyyətli sosial xidmətlərlə əhatə olunmaları, asudə vaxtlarını mənalı keçirmələri üçün şərait yaradılıb. Müəssisədə kitabxana və idman zalları, müəyyən əl işləri hazırlamaq üçün emalatxanalar və sair ahılların istifadəsindədir. Hazırda sosial xidmət müəssisəsində təxminən 200 ahıl yaşayır. Həmçinin daimi olaraq əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələr ilə eyni yaşayış məntəqəsində yaşamayan və sosial xidmətə ehtiyacı olan tənha ahıllara, ahıl ər-arvadlara, əlilliyi olan şəxslərə sosial xidmətçilər tərəfindən evdə səyyar xidmətlər göstərilir. Sosial xidmətçilər tənha ahıl və fiziki məhdudiyyətli şəxslərin evlərinə gedərək onlara ev təsərrüfatında, əsas tələbat mallarının alınması və digər işlərdə kömək göstərirlər. Statistikaya əsasən, cari ildə tənha və əlilliyi olan 6185 nəfərə evlərində sosial-məişət xidmətləri göstərilib ki, onlardan 5456 nəfərin yaşı 70 və yuxarı olanlardır [5].

***Əmək pensiyaları ilbəil artırılır***

2006-cı ildən etibarən ölkəmizdə tətbiq edilən sığorta-pensiya modeli müasir dünya standartlarına cavab verir, ən mühüm elementləri özündə

birləşdirir. Bu sahədə həyata keçirilən islahatlar nüfuzlu beynəlxalq təşkilatlar, maliyyə institutları tərəfindən də yüksək qiymətləndirilir. Yeni sığorta-pensiya sistemində pensiyaların artırılması, bazar iqtisadiyyatının tələblərinə uyğun dəyişdirilməsi mövcud maliyyə imkanlarımızın, xüsusilə, əmək pensiyaçıları arasında ədalətli bölgüsünə imkan verir. Nəzərə almaq lazımdır ki, ölkəmizdə əmək pensiyaçılarının əsas hissəsini ahıl şəxslər təşkil edir. Ötən beş ildə Prezident İlham Əliyev yaşa görə əmək pensiyasının baza və sığorta hissəsinin artırılması ilə bağlı dəfələrlə sərəncamlar imzalayıb. Beləliklə, yeni sistemin tətbiqindən sonra əmək pensiyalarının minimum və orta aylıq məbləği təxminən 3-4 dəfə artıb. Ahılların sosial-psixoloji və iqtisadi problemləri cəmiyyətin ümumi rifahına təsir edən əsas amillərdən biridir. Bu problemlərin həlli yalnız ahılların rifahını artırmaqla qalmır, həm də cəmiyyətin sosial inteqrasiyasını gücləndirir. Tənha ahıllar cəmiyyətin bilik və təcrübə xəzinəsidir,lakin onların təcrid olunması bu potensialın itirilməsinə səbəb olur. Bu səbəbdən, dövlət, ailə və cəmiyyətin ahılların problemlərinin həllində birlikdə fəaliyyət göstərməsi vacibdir. Ahıllar üçün sosial xidmətlərin və dəstək mexanizmlərinin gücləndirilməsi onların həyat keyfiyyətini yüksəldəcək. İqtisadi dəstək, psixoloji yardım və sosial əlaqələrin artırılması onların cəmiyyətə daha fəal inteqrasiyasını təmin edə bilər. Sosial işin səmərəli təşkili ahılların həm sosial təcridini aradan qaldırar, həm də onların cəmiyyətin aktiv üzvünə çevrilməsini sürətləndirər. Bundan əlavə, maarifləndirmə işləri vasitəsilə cəmiyyətin ahıllara münasibətinin müsbət yöndə dəyişdirilməsi mümkündür. Məqalədə göstərilən həll yollarının həyata keçirilməsi ahılların yalnız mövcud problemlərini həll etməklə qalmayacaq, eyni zamanda onların özlərini daha dəyərli hiss etmələrinə kömək edəcəkdir. Uzunmüddətli strategiyalar və effektiv dövlət siyasətləri ahılların rifahını təmin etməyin ən mühüm yollarından biridir.

## Ədəbiyyat siyahısı:

*Azərbaycan dilində*

1. Firsov M. V., Studenova E. Q. Sosial işin nəzəriyyəsi. Ali məktəblilər üçün dərslik. Bakı, Elm və təhsil nəşriyyat, 2018. 429 s.
2. İsmayılova E. S. Fərdlər,qruplar və ailələrlə sosial iş. Dərs vəsaiti. Bakı, 2022. "Füyuzat" nəşriyyatı. 268 s.

*Türk dilində*

3. Çağlar T. Yaşlılık ve Sosyal Hizmet: YaşamDestek Merkezi. Ankara, 2014. 162 s.

*İngilis dilində*

4. National Association of Social Workers.Standards and Indicators for C ultural Competence in Social work practice. Washington, DC, 2015. Press. 61 s.
5. Sosial Tədqiqatlar mərkəzi Azərbaycanda yaşlılar: qayğı və rifah (202).

*İnternet resursları*

6. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasınınqanunu https://e-qanun.az/framework/23195

**Namizar Yusubov**

## ANALYSIS OF SOCIO-PSYCHOLOGICAL AND ECONOMIC PROBLEMS EXPERIENCED BY OLDER PEOPLE IN AZERBAIJAN AND WAYS TO SOLVE THEM

**Summary**: Population aging in Azerbaijan is a demographic reality. Although the elderly are an important part of society, they often face various problems. Among these problems, social isolation, psychological stress and economic difficulties are at the forefront. The purpose of the article is to deeply analyze these problems and present concrete proposals for their solution.

***Key words:*** mind, problems, socio-psychological problems, economic problems, solutions.

**Намизер Юсубов**

## АНАЛИЗ СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИХ И ЭКОНОМИЧЕСКИХ ПРОБЛЕМ, ИСПЫТЫВАЕМЫХ ПОЖИЛЫМИ ЛЮДЬМИ АЗЕРБАЙДЖАНА И ПУТИ ИХ РЕШЕНИЯ

**Резюме**: Старение населения в Азербайджане – демографическая реальность. Хотя пожилые люди являются важной частью общества, они часто сталкиваются с различными проблемами. Среди этих проблем на первый план выходят социальная изоляция, психологический стресс и экономические трудности. Цель статьи – глубоко проанализировать эти проблемы и представить конкретные предложения по их решению.

***Ключевые слова:*** разум, проблемы, социально-психологические проблемы, экономические проблемы, решения.